**ƏMANƏT ƏSƏDOVA**
*Bakı Dövlət Universiteti*

# DƏDƏ QORQUD OĞUZLARININ İDARƏÇİLİK SİSTEMİ

Azərbaycan şifahi xalq yaradıcılığının və bədii təfəkkürünün şah əsəri olan «Kitabi-Dədə Qorqud» dastanı xalqımızın etnogenezinin, soykökünün, erkən orta əsr həyat tərzinin, təsərrüfat məişətini, maddi və mənəvi mədəniyyətinin öyrənilməsi üçün əlimizdə olan ilk anadilli yazılı tarixi mənbə kimi əvəzolunmaz əhəmiyyətə malikdir. Azərbaycan tarixinin qədim və erkən orta əsrlər tarixinin hər hansı problemi ilə məşğul olan tədqiqatçı hökmən bu möhtəşəm salnaməyə istinad edir və bunsuz keçinmək mümkün deyildir. Bu dövrün ictimai-sosial quruluşunu, dövlət idarəçilik sistemini tədqiq etmək üçün də dastan bizə çox qiymətli və səhih məlumatlar verir.

«Kitabi-Dədə Qorqud» dastanında feodal cəmiyyətinin bərqərar olduğu «Oğuz eli» adlanan vətəndaş cəmiyyətinin həyat tərzi, yaşayış qaydalarından bəhs olunur. İctmai quruluşuna görə bu dövlət hərbi demokratiyanın mühüm xüsusiyyətlərini hələ də özündə qoruyub saxlamış erkən feodal dövlətidir, qəhrəmanlıq göstərən igidlərə geniş torpaq sahələrinin bağışlanması adi hala çevrilib. Oğuz ellərinin yurdu Şimallı-Cənublu Azərbaycan ərazisini, indiki Ermənistan ərazisinin böyük bir hissəsini, (bir hissə qıpçaqların əlində olmuşdur), Şərqi Anadolu torpaqlarını və Həmədan daxil olmaqla indiki İranın mərkəzi rayonlarını əhatə edir.

Bütün oğuz dastanlarında hərbi demokratik tipli dövlət «el» adlanır və «el qurmaq» Tanrı borcunu yerinə yetirmək niyyəti daşıyır. Bu mənada «Kitabi - Dədə Qorqud» dastanı da istisna təşkil etmir. Türk «el» sistemi torpağı, milləti hüquqi idarə nizamları ilə qoruyan bir siyasi təşkilatdır. Öyrənilən mənbədə də «el» vassallıq sisteminə malik dövlət anlamındadır. «Qalın Oğuz Eli» yalnız İç və Taş oğuzlarını öz tərkibində birləşdirmişdir, Gürcüstan, Qan Abxaz eli isə vassal asılılğındadır və qalın Oğuz elinə daxil deyildir.

Dövlət strukturuna gəldikdə isə, hərbi demokratik tipli türk və monqol dövlətlərində dövlətin başında xaqan, xanlar xanı, ordunun başında tekin və ya şad, inzibati idarə sisteminin başında bəylər dayanır, sağ və sol qanada hökmdar sülaləsindən olanlar başçılıq edirlər (1, s.70). Oğuz ellərinin başında Bayandır xan dayanır. Dastanda o, Qamğan oğlu və Xanlar xanı kimi təqdim edilir. Dastanın bir neçə boyunda ildə bir dəfə toy edib oğuz bəylərini qonaqlaması nəzərə alınmazsa, Bayındır xanın fəaliyyəti nəzərə çarpmır. Dastanda bütün dövlət işlərinin Qazan xan tərəfindən idarə edildiyi aydın görünür. Bununla belə, Oğuzların başçısı, rəhbəri olan Bayandır xan, Xəzər xaqanlığında olduğu kimi gerçək hakimiyyət əlindən alınmış və səlahiyyəti ordu komandanına keçmiş bir şəxs də deyildir (8, s.76). Onun xanlar xanı, Qamğan oğlu kimi təqdim edilməsi ona xüsusi hörmət bəslənilməsini və hakimiyyətdən məhrum bir şəxs olmadığını göstərir. Oğuz tayfa başçılarının ildə bir dəfə Bayandır xanın divanına toplanması ali hakimiyyətin ona məxsus olduğunu sübut edir. Bayındır xanın divanı Həmədanda yerləşir. Bu gün də Qars çevrələrində xalq arasında belə bir deyim qalmaqdadır – «Bizim iş Bayındır yoluna düşdü». Yəni Qarsda yerli hakimiyyət orqanlarının həll edə bilmədiyi və mərkəzə – Ankaraya göndərilən hər hansı bir işin müşkülə, çətinliyə düşməsini belə ifadə edirlər (4, s.78). Bayındır xan ali hakimiyyətin başçısı olmaqla yanaşı ədalət məhkəməsinin də aparıcısıdır. Qarcar Beyrəyin sağ olub-olmamasını bilmək üçün Bayındır xanın divanına müraciət edir. Bayındır xanın divanı həm də mübahisələrin baxıldığı yer, xan özü isə ali hakimdir (6, s.17). Xanın hakimiyyətinin irsi olub-ol-

maması haqqında dastanda heç bir işarə yoxdur, lakin bəylərin hakimiyyətinin irsən keçməsi barədə eyhamlar vardır.Dastanın dördüncü boyunda Qazan xanın hələ ad qazanmamış oğluna dediyi «mən öləndə, birdən taxt-tacımı sənə verməyələr»(5, s.167) sözlərindən belə bir qənaət əldə olunur ki, taxt-tac məsələsi bəylərin ümumi razılığı ilə həll olunur (6, s.16).

«El» sistemində dövlət işlərinə nəzarət edən bir məclis-divan vardır. Məşvərət üçün toplanan bu məclis müxtəlif adlar altında bütün türk dövlət qurumlarında mövcud olmuşdur. Azərbaycan türkcəsində «gənəşmək» ifadəsi ilə səsləşən bu kengeşinməclisin bitkin şəkli oğuznamələrdə, Manas dastanında, qıpçaq, başqırd, qazax, qırğız variantlarında qorunub saxlanılmışdır. «Kitabi-Dədə Qorqud» dastanında isə bu məclis «toy» adı ilə ifadə olunmuşdur. Bu toylar inzibati-dövlət problemlərinin müzakirə olunduğu ümumqəbilə, ümumdövlət yığıncağı olmaqla yanaşı, həm də bir ziyafət məclisidir. Məhz bu mənada monqol dövlətindəki «qurul-*tay*» termini oğuz türklərinin «*toy*» törəmindəndir (1, s.70). Dastanda belə ümumi el toyu-məclis ilə yanaşı yalnız qəbilə bəylərindən ibarət ayrıca bir məclis də özünə yer almışdır. «Qoca» ünvanı daşıyan 6 bəyin - Uşun Qoca, Qazılıq Qoca, Kanqlı Qoca, Duxa Qoca, Ənsə Qocanın daxil olduğu bu şuraya Qazılıq Qoca başçılıq edir.

Oğuz elinin hərbi qüvvələrinin baş komandanı və icra hakimiyyətinin başçısı bəylər bəyi Salur Qazandır. Onun da ümumdövlət problemlərini çözmək üçün «toy» çağırmaq hüququ vardır. Bununla yanaş, ordu komandanı kimi xüsusi məşvərət şurasını çağırmaq səlahiyyətinə də malikdir.

Qeyd edilməlidir ki, «Kitabi -Dədə Qorqud» dastanında hərbi demokratik dövlətin sonuncu tipi xarakterizə edilmişdir. Artıq ümumi məclis öz səlahiyyətlərini itirmək üzrədir, o öz yerini qəbilə bəylərının toplaşdığı məclisə verməkdədir. Məhz ona görədir ki, dastanın sonuncu boyunda Salur Qazan Bayındır xandan izn almadan Taş oğuzla savaşa girir.

Oğuzlarda əsas hakimiyyət rəmzləri otaq və ya xaqanın çadırı, taxt, boru, təbil, tuğ və sancaqdır. Onlar döyüşlərdə qalib gəldikləri düşmənin ilk növbədə tuğ və sancağını qılınclamaqla qələbə çaldıqlarını bildirirlər: «Qazan xanın qardaşı kafərin tuğilə sancağı qılıncladı, yerə saldı» (5, s.50).

Bütün türk xalqlarında olduğu kimi oğuzlarda da ölkənin iki qanada bölündüyü, hakimiyyətin iki bölüm halında idarə edildiyi aydın görünür. Avropa və Asiya hunlarında, Tabğaclarda, Göy Türklərdə, Ağ hünlarda, macarlarda ölkə doğı-bati, güzey-güney (sağ-sol), böyük və kiçik kimi iki qanada bölündüyü halda, oğuzlarda bu daha çox iç-dış, bozok-üçok bölgüsü kimi görünməkdədir. İç-dış bölgüsü oğuzlarla bərabər bulqarlarda və karluqlarda da mövcud olub. Ölkənin sağ və sol qanadlara bölünərək təşkilatlanmasına baxmayaraq, hər iki qanad mərkəzi hakimiyyətə tabedir. Bununla belə daim bir tərəfin hakimiyyət üstünlüyü tanınır.. Dastanda Taş oğuzun İç oğuza tabe olduğunu görürük, ölkənin ali hakimiyyət nümayəndəsi yalnız İç oğuzdan seçilə bilər. Hakimiyyətdəki mövqelərindən asılı olaraq İç oğuz bəyləri hökmdarın sağında, Taş oğuz bəyləri isə solunda əyləşir. Bu bölgü dastan qəhrəmanlarından biri olan Bamsı Beyrəyin dili ilə belə ifadə olunmuşdur: «Sağ tərəfdə əyləşən hörmətli bəylər, sol tərəfdə əyləşən qeyrətli bəylər, eşikdəki yavərlər» (5,s.162). Hər iki qolun başında qolbəyi dayanır. Dastanda İç oğuzun qolbəyi olan Qazan xan həm də, bəylərbəyidir. Taş oğuzun qolbəyi Aruz da ona tabedir. Mərkəzi hakimiyyətə qarşı hər hansı itaətsizlik amansızlıqla yatırılır. Dastanın on ikinci boyunda Qazan xanın Taş oğuzun tabeçilikdən çıxma cəhdinin qarşısını amansızlıqla aldığının şahidi oluruq.

F. Rəşidəddin boz oxların-qayı, bayat, alkaravlı, qarauvlu, yazır, döyər, dodurğa, yanarlı, afşar, qayıq, bəkdili, qarçın; üçoxların isə Bayandur, beçənə, çavuldur, çəpni,

salur, eymür, ala yuntlu, ürəgir, yigdir, bükdüz, yuva, qınıq, boylarindan ibarət olduğunu yazır (7, s.39-40). Şübhəsiz, Dədə Qorqud oğuzları da həmin tayfalardan ibarət olub. Dastanda keçən bəzi oğuz tayfalarının adı da belə düşünməyə əsas verir.

Feodal səciyyəli Oğuz elində hər bir tayfanın başında həmin tayfadan çıxmış bəy durur. Onların özlərinə aid əraziləri var və burada onlar hakimdirlər. Bəylər öz yurdlarında, ordalarında yaşayır, öz tayfalarını idarə edirlər. Hər bir tayfanın özünə məxsus silahlı qüvvələri vardır və mərkəzi hakimiyyətin çağırışına dərhal cavab verməli, döyüşə qatılmalıdır. Dastanda vətəni müdafiə etmək müqəddəs iş hesab olunur və hər bir oğuz igidi düşmən başı kəsməklə cəmiyyətdə mövqe qazanmışdır. Bəylərin öz hərbi dəstələri ilə Qazanın, Yeynəgin, Əmranın köməyinə gəlməsi erkən feodal dövlətləri üçün səciyyəvi olan xüsusiyyəti bir daha sübut edir. Qoşuna muzdlular da cəlb olunmuşdur. Dastanın yeddinci boyunda Yeynək dayısı Əməni: «Beş axçaya qulluq edən adamlarla hücum edib qalanı ala bilmədin» - deyə məzəmmət edir (5, s.194).

Tayfa başçıları ildə bir dəfə Bayandır xanın məclisinə toplaşır. Qazan da ildə bir kərə oğuz bəylərinə yağmalı bir qonaqlıq verir. Oğuzların rəhbərlərinin birinci borcu tayfa başçılarını hörmətlə qarşılamaq, ənənələrə riayət etməkdir. Dastanın birinci boyunda Bayındur xanın düşünülməmiş hərəkəti az qala Dirsə xanın mərkəzi hakimiyyətə qarşı qiyamına səbəb olacaqdı (5, s.34-35). Məhz oğuz adət-ənənəsinin Qazan xan tərəfindən pozulması dayısı Aruzun üsyan etməsinə səbəb olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Oğuz xaqanının ildə bir dəfə müəyyən münasibətlə öz evini yağmalatması dünyanın əksər xalqlarının tarixi inkişafının müəyyən mərhələsində - xüsusi mülkiyyətin, dövlətin yaranma ərəfəsində qeydə alınmış potlaç adətinin bir izi hesab oluna bilər.

Qalın oğuzda bir dövlət müşaviri vəzifəsi olduğunu da görürük. Dastanda bu vəzifənin daşıyıcısı Dədə Qorquddur. O, dastanın təkcə yaradıcısı və adi personajı deyil, həm Oğuz elinin ağsaqqalı, Bayındur xanın məsləhətçisidir. Dastanın girişində və digər boylarda Dədə Qorqudun el ağsaqqalı, oğuzun bilicisi, sehrbaz olması qeyd olunursa, «Bəkil oğlu Əmran...» boyunda o, Bayındır xanın müşaviri kimi çıxış edir. Gürcüstandan xərac kimi gələn bir at, bir qılınc və bir çomağı bəylər arasında bölmək çətinliyi qarşısında qalan Bayındur xan məhz Dədə Qorquda müraciət edir.

Dastanda oğuz bəyləri arasında bir ziddiyyət vardır. Qazılıq Qoca oğlu Yeynəyin Qalın Oğuz bəylərini bir-bir atından yıxdığı (5, s.49) Qazana «keşiş» dediyi bildirilir. Bu isə Qazan ilə Yeynək arasında bir münaqişənin olduğunu düşünməyə əsas verir. Dastanda Bəkil onun izzət-nəfsinə toxunan Qazanın hərəkətinə cavab olaraq «alplar içində bizi qusqınımızdan balcığa baturdın» (5, s.105) deyib Bayındur xanın məclisini tərk edir və ordasına gedir. Təhqir olunduğu üçün Bəkil oğuzlara asi olaraq ordasını, elini - gününü köçürüb Gürcüstana getmək istəyir. Lakin buna onun xanımı mane olur. Qazanın hərəkətindən inciyən oğlu Uruz da atasını Qan Abqaz elinə gedib altun xaça əl basacağı, pilon geyən keşişin əlini öpərək qara gözlü kafir qızını alacağı və bir daha onun üzünə gəlməyəcəyi ilə hədələyir (5, s.68).Bu isə oğuz bəylərinin məğrurluğunu, onların rəhbərlərinə tabeçiliyinin kölənin öz ağasına tabeçiliyi kimi olmadığını göstərir. Onlar öz ağalarının ən adi təhqirlərinə sərt cavab verirlər. Lakin bu ziddiyyətlər oğuz tayfa başçılarının düşmənə qarşı birgə döyüşməsinə mane olmur. Oğuz bəyləri arasında ziddiyyətlər barışıq yolu ilə həll edildiyi halda, mərkəzi hakimiyyətə, dövlətin bütövlüyünə qarşı yönəlmiş hər hansı üsyan qılıncla yatırılır.

Dastanda oğuzların ictimai-siyasi quruluşu ilə bağlı çox maraqlı bir məqam köləliklə bağlıdır. Aydındır ki, bütün şərqdə olduğu kimi burada da köləlik klassik formada olmamışdır, burada kölələr öz ağalarına xidmət edir və ev işləri görürlər. «Salur Qazanın oğlu Uruz bəy» boyunda kölələrin azadlığa buraxılması barədə fikir ehtiva olun-

muşdur. Köləliyin mənbəyi yalnız müharibələr, basqınlar zamanı götürülən əsirlərdir (6, s.11).

«Kitabi -Dədə Qorqud» dastanındakı Oğuz dövləti ictimai-siyasi quruluşuna görə digər türk abidəsi olan «Oğuz xaqan» dastanındakı feodal dövləti ilə eynidir. Yalnız Oğuz xaqanda bu dövlətin ilkin - klassik şəkli verilmişsə «Kitabi- Dədə Qorqud»dakı dövlət köçərilikdən oturaqlığa, tanrıçılıqdan İslama keçən dövlət tipidir. Oğuz xaqan dövləti daha çox fəthlər, işğallar aparan bir dövlətdirsə, Oğuz dövlətinin apardığı müharibələr kafir basqınlarının qarşısını almaq, onları haqq dininə gətirmək məqsədini daşıyır. Bu məqam «Kitabi-Dədə Qorqud» dastanının türk abidələri içərisində ən şərəfli və önəmli yer tutduğunu bir daha sübut edir.

Hərbi-demokratik tipli dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissələrindən biri də «yağma»dır. Bayandur xan da, Salur Qazan da ildə bir dəfə həlalının əlindən tutub evindən çıxır və öz evini, varını yağmalatdırır. Vaxtilə Osmanlı sultanlarının cümə günləri yemək paylamaları bu qədim ənənədən qalma bir izdir. «Kitabi - Dədə Qorqud» dastanının sonuncu boyunda baş komandan Salur Qazanın öz evini yağmalatması zamanı yol verdiyi bir xəta üzündən İç və Taş oğuzlar bir-birinə asi duşurlər.

Dastandan aydın olur ki, oğuzlarda ictimai quruluş ailədən elə qədər inkişaf edir, genişlənir. Qalın oğuza daxil olan 24 tayfanın - boyun hər biri qohum ailələr birliyidir.Oğuzlar bir-biri ilə qarşılaşanda «boy kim?» - deyə sual edirlər. Hər boyun özünə məxsus damğaları var idi. Dövlətə «El» deyilir və el ayrı-ayrı tayfalar birliyindən təşkil olunmuşdur. Tayfaların bəyləri birbaşa xaqana və onun müavini bəylərbəyə tabe idi. Dastanda el sözünün sinonimi kimi «gün» sözü də işlədilmişdir və dövlət anlamı ilə yanaşı xalq, tayfa anlamı verir. Aruz tərəfindən ölümcül yaralanan Beyrək:

«Yigidlərim, Aruz oğlu Basat gəlmədən,
Elim-günüm çapılmadan Qazan mana yetişsün,
Mənim qanum Aruza qalmasun»
- deyib öz adamlarını Qazanın yanına göndərir (5, s.223).

Göründüyü kimi, Oğuz elində qan intiqamı adəti var. Qəbilə üzvləri bir-birinə kömək etməli, bir-birini müdafiə etməli və xüsusilə özgələr zərər vurduqda, bunun intiqamını almaqda birgə hərəkət etməlidirlər. Ayrıca bir adam öz təhlükəsizliyini qorumaq işində qəbilənin himayədarlığına bel bağlayırdı və buna arxalana bilərdi: ona pislik edən adam bütün qəbiləyə pislik etmiş olurdu. Buradan qəbilənin qan qohumluğu əlaqələrindən qan intiqamı kimi bir vəzifə əmələ gəlmişdi və əgər qəbilə üzvünü özgə qəbilədən olan birisi öldürsə, öldürülənin bütün qəbiləsi bu qanın intiqamını almalı idi (2, s.295). Məhz bu tələbin nəticəsi idi ki, Qazan öz tayfasının üzvü Beyrəyin intiqamını dayısı Aruzdan almışdı. Qan intiqamı məsələsi dastanın sonuncu boyunda xüsusilə qabardılmışdır. Beyrək son nəfəsində qanının Aruzdan alınmasını açıq şəkildə vəsiyyət edir, yeddi gün divanından çıxmayıb Beyrəyin ölümünə yas tutan Qazan xan yalnız «Beyrəyin qanını alaq» təklifindən sonra hərəkətə gəlir və dayısı Aruzla savaşa girir.

Oğuz dövləti artıq tam formalaşmış bir dövlətdir və qan intiqamına görə cərimənin təyin edildiyi də aydın görünür. Bunu Uruzun düşmən hücumu zamanı atası Qazandan soruşduğu «Baba, içində bəy yigidlər öldürsələr, qan sorularmı, dəvilərmi?» (5, s.168)- sözləri də göstərir.

Dastandan aydın olur ki, ordu və ailə oğuz cəmiyyətinin iki əsas dayağını təşkil edir. Cəmiyyətin hər bir üzvü cinsindən asılı olmayaraq, vətənin, torpağın müdafiəçisidir. Araşdırmalar göstərir ki, qədim türk dövlət strükturu türk tayfa (ailə) strukturundan doğmuşdur və hətta dövlətin rütbə, titul sistemi türk qohumluq terminləri ilə üst-üstə düşür. Buradan belə bir həqiqət meydana çıxır ki, qədim türk dövləti türk ailə təməlinə söykənir və ailədən tutmuş dövlətə qədər bir sistem yaradır (3, s.9).

## ƏDƏBİYYAT

1. Bahəddin Ögəl. Türk kültür tarixinə giriş, VIIIc., Ankara Başbakanlığı Basımevi, 1991, 516s.
2. Engels F. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi // K.Marks, F.Engels. Seçilmiş əsərləri, 3cilddə, IIIc., Bakı: Azərnəşr, 1983, s.321-414
3. Əsgər Ə. Qıpçaq M. Türk savaş sənəti. Bakı: Yazıçı, 1996, 174s.
4. Kırzıoğlu F. Dede Korkut oğuznameleri. Atatürk Kültür Merkezi Başbakanlığı yayımları. I kitab, Ankara, 1990, 87s.
5. Kitabi-Dədə Qorqud. Bakı:Yazıçı, 1988, 265s.
6. Məlikova M. «Kitabi-Dədə Qorqud» dastanında ictimai-siyasi və hüquq ideyaları. Bakı: Qanun, 2000, 36s.
7. Rəşidəddin F. Oğuznamə. Bakı: Azərnəşr, 1992, 72s.
8. Şaban Kuzğun. Hazar ve karay türkleri. Ankara: Alıç matbaaçılık, 1993, 367s.

**А.А.АСАДОВА**

## УПРАВЛЕНЧЕСКАЯ СИСТЕМА ОГУЗОВ ДЕДЕ КОРКУТ

Эпос «Китаби-Деде Коркут» является незаменимым источником при изучении социальной структуры, хозяйственной деятельности, материальной и моральной культуры азербайджанского народа в раннесредневековый период. В дастане рассказывается о могучем тюркском государстве, называемом «Огуз ели» и о деятельности его граждан –огузов. Это государство развивалось на последней стадии развития военной демократии. В эпосе открыто видны функции и полномочия отдельных сфер государственной власти, в частности высшего законодательного, испольнительного органов и совещательного в виде Диван. Со стороны Баяндур хана проводимые раздачи своего имущества раз в году, являются следом древнего потлачного обычая. Кровная месть еще сохраняет свое место в Огузском обществе.

**A.A.ASADOVA**

## THE REDTAPE SİSTEM OF OĞUZ OF THE DEDE QORQUD

The epos of «Kitabi-Dede Qorqud» is irreplaseable souce in learninq of the ethnology of the Azerbaijan people. This epos is a lot of about powerful turk state by name «Oğuz eli». This state is millitary democracy typical. Bayandır khan is leadership of this state. He is also referee of law-court. Executive power is belonq to noble man Qazan khan.

***Rəyçilər: t.e.n.K.Məmmədov, t.e.d.S.Məmmədov.***
***BDU-nun tarix fakültəsi Arxeologiya və etnoqrafiya kafedrasının 18 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №07)***